# Birinci pərdə
# "ŞÜBHƏ"

## I FƏSİL

## "Quzğun yuvası"

Mister Sattertueyt "Quzğun yuvası" villasının balkonunda oturub ağası ser Çarlz Kartraytın dənizdən evə qalxan yolla necə irəliləməyinə baxırdı.

Hədsiz yeniliklərlə təchiz edilmiş, müasir bunqalo nümunəsi olan "Quzğun yuvası" villasında portikdən, frontondan və başqa bəzək-düzəklərdən əsər-əlamət yox idi. Ağ daşdan tikilmiş bu sadə və alçaq evə daxil olanda onun kənardan təxmin edildiyindən xeyli geniş olduğunu yəqinləşdirirdin.

Villanın "Quzğun yuvası" adlandırılmasının səbəbi dəniz səviyyəsindən xeyli yüksəkdə yerləşməsində və Lu-

maut limanının buradan ovuc içi kimi görünməsində idi. Bəzəkli məhəccərlə əhatələnmiş balkonların bir tərəfi dənizin üzərinə düşürdü. Sahilin içərilərinə doğru aparan yolla villadan şəhərə getmək üçün cəmi bir mil məsafə qət etmək lazım gəlsə də, indi ser Çarlz Kartrayt dik balıqçı cığırı ilə addımlayırdı.

Nimdaş boz flanel şalvar və ağ sviter geyinmiş, dərisi gündən qaralmış orta yaşlı, qədd-qamətli kişi olan ser Çarlz qollarını dirsəkdən bir qədər bükmüş vəziyyətdə iri addımlarla irəliləyirdi. Kənardan baxanların əksəriyyəti onu təcrübəli balıqçı hesab etsələr də, bir qədər diqqətli müşahidəçi bu səhnədə fikirləşilmiş hiyləni aydınca sezə bilər, göyərtənin, gəminin həqiqi yox, səhnə arxasına kobud şəkildə çəkilmiş təsvirlər olduğunu anlayardı... Qollarını dirsəkdən bir qədər bükmüş Çarlz Kartrayt günəşin deyil, projektorların işığı ilə işıqlanmış göyərtədə addımlayırdı... O, ingilis dənizçisi rolu oynayan əsl centlmen səsi ilə:

– Xeyr, ser, təəssüf edirəm. Ancaq bir də məndən onun haqqında heç nə eşitməyəcəksiniz, – dedikdən sonra ağır pərdə səs-küylə endi, əlvan işıqlar yandı və orkestrin səsi yüksəldi.

Başlarında böyük bantlar olan gözəl qızlar tamaşaçılara şokolad, limonad təklif edirdilər. Kapitan Venstoun rolunda Çarlz Kartraytın oynadığı "Dənizin çağırışı" tamaşasının birinci pərdəsi bitmişdi.

Mister Sattertueyt yuxarıdan gülümsəyə-gülümsəyə ser Çarlza baxırdı. Bütün növ incəsənətin, təbii ki, eyni zamanda teatrın da hamisi olan balacaboy, arıq, *snob*[1] ol-

---

[1] *Snob* – Aristokrat cəmiyyətinin zövq və ədalarını kor-koranə təqlid etməyə çalışan və başqa hər şeyə xor baxan adam.

masına baxmayaraq, xoş rəftarı ilə fərqlənən mister Sattertueyt aristokrat əyləncələrinin daimi iştirakçısı idi. Kübar cəmiyyətin bu və ya digər dərəcədə əhəmiyyət kəsb edən tədbirlərindən heç biri onsuz baş tutmazdı. Dəvət olunanların siyahısı mütləq "və mister Sattertueyt" sözləri ilə bitərdi. Ancaq mister Sattertueyt heç də qeyri-adi ağlı və nadir fərasəti ilə fərqlənən adamlardan deyildi. O, başını bulaya-bulaya sakitcə:

– Doğrusu, heç ağlıma gəlməzdi, – deyə mızıldadı və arxadan səs eşidib başını döndərəndə hündürboy, ağsaç bir centlmen kreslonu çəkib oturdu.

Centlmenin xeyirxahlıq ifadə edən ağıllı simasına baxanlar onun hansı sənətin sahibi olduğunu dərhal anlayırdılar: sanki "Həkim. Harli-strit" sözləri onun alnına yazılmışdı.

Öz sahəsində xeyli uğur qazanmış ser Varfolomey Streync əsəb xəstəlikləri üzrə tanınmış mütəxəssis idi. Təzəcə zadəgan titulu almışdı.

O, kreslosunu mister Sattertueytə tərəf çəkib:

– Nə ağlınıza gəlməzdi? – deyə soruşdu. – Danışın, görək.

Mister Sattertueyt gülümsəyərək gözləri ilə cığırla qalxan Çarlzı göstərdi:

– Heç vaxt ağlıma gəlməzdi ki, ser Çarlz bu qədər uzun... sürgündən zövq alsın.

Həkim:

– Buna mən özüm də təəccüblənirəm! – deyə güldü. – Mən Çarlzı uşaqlıqdan tanıyıram. Oksfordda bir yerdə oxumuşuq. Həmişə belədir, həyatda səhnədəkindən yaxşı oynayır. Amma oynamadığı vaxt yoxdur. Nə etmək olar,

vərdiş – ikinci xarakterdir. O, hətta otaqdan da başqaları kimi çıxmır. Pərdənin arxasında da təsirli bir söz deyə bilir. Bundan başqa, həmişə özünə müxtəlif rollar seçir. İki il bundan əvvəl, öz dediyinə görə, kübar cəmiyyətindən uzaqda sadə kənd həyatını dadmaq üçün səhnəni tərk eləmişdi də. Çoxdan xəyalında qurduğu dəniz mühitinin səfasını görmək məqsədilə. Buraya gəldikdən sonra isə "sadə kənd kotteci" qurmağa başladı. Üç vanna otağı, ətrafda müxtəlif yeni dəbli şeylər... Mən də əmin idim ki, tezliklə bütün bunlar Çarlzı bezdirəcək. Axı ona tamaşaçı lazımdır. İki-üç istefaya çıxmış kapitandan, bir yığın yaşlı qadından, protestant keşişindən tamaşaçı olar? Fikirləşdim ki, dənizi sevən cavan oğlandır – bu əyləncə üçün yarım il ona kifayət edər. Sonra da gedib Monte-Karloda bezgin modabaz və yaxud Şotlandiyada-filanda sahibkar lord rolunu oynamağa başlayar. Belə fikirləşməyə əsasım var idi – axı Çarlz bir yerdə çox dayanmağı xoşlamır.

Həkim susdu. Onsuz da çox danışmışdı. Onun gözləri təbii bir səmimiyyətlə və qayğılı-qayğılı müşahidə edildiyinin fərqinə belə varmadan cığırla evə tərəf gələn Çarlzı izləyirdi. Çarlzın balkona çatmağına artıq çox az qalmışdı. Ser Varfolomey:

– Ancaq mənə elə gəlir ki, biz yanılmışıq, – deyə yenidən danışmağa başladı. – Deyəsən, sadə həyat onu bezdirməyib.

– Həyatını teatra çevirmiş bir adam haqqında asanlıqla yanılmaq mümkündür. Onun səmimiyyətinə inanmaq düzgün deyil.

– Tamamilə haqlısınız.